# Xalqın mənəvi dəyərlərini yaşadan milli sərvəti

*Hər il fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1952-ci ilin fevralında Banqladeşin Benqal şəhərində 4 tələbə ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparıblar. Fevralın 21-də həmin gəncləri amansızcasına öldürüblər, məhz onların xatirəsinə ehtiram olaraq bu gün Beynəlxalq Ana Dili Günü elan olunub.*

Dil xalqın milli sərvətidir. Ana dilinin dövlət dili statusuna yüksəlməsi isə milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Dil istənilən xalq üçün maddi və qeyri-maddi irsin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi istiqamətində ən güclü vasitələrdən biridir. Müxtəlif ölkələrdə ana dilinin təbliği üçün həyata keçirilən bütün tədbirlər yalnız linqvistik müxtəliflik və çoxdilli tədris baxımından deyil, eyni zamanda qarşılıqlı anlaşmaya, tolerantlığa və dialoqa əsaslanan mühitin formalaşması üçün vacibdir. Dil fərdə, cəmiyyətə, sosial inteqrasiyaya, təhsil və inkişafa təsir gücünə görə bəşəriyyət üçün həyati əhəmiyyət kəsb edən dəyərlərdəndir. Qloballaşma prosesinin təsiri ilə mürəkkəb dövr yaşayan "ana dili" anlayışı bu gün qorunmağa və möhkəmlənməyə böyük ehtiyac duyur. Ana dili hər bir xalqın varlığının təsdiqidir. Millətin keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, ana dilində öz əksini tapır. Doğma dilini itirən xalq isə məhvə məhkumdur.



Ölkəmizdə ana dilinin yüksək səviyyədə inkişafı ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən ümummilli lider müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri nümayiş etdirdi. 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyində doğma ana dilində çıxış edən dahi şəxsiyyət rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər vermişdi. 1978-ci ildə qəbul olunan Azərbaycan SSR Konstitusiyasında ilk dəfə olaraq rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu qazandı. Ölkəmiz ana dilinin rəsmi dil statusuna malik olduğu azsaylı sovet respublikalarından idi.

1993-cü ilin iyununda xalqın təkidi ilə hakimiyyətə qayıdan ümummilli lider qısa zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın stabilləşməsinə nail oldu. Onun xüsusi diqqət yetirdiyi amillərdən biri məhz dil məsələsi idi. Böyük ictimai xadim mütəxəssislərin iştirakı ilə geniş müzakirələr keçirdi. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman xüsusi tarixi əhəmiyyət daşıyırdı. Beləliklə, Azərbaycan dilindən istifadə etməyən qurumlarda dövlət dili bərqərar edildi, həmçinin latın qrafikasına keçid prosesi başa çatdırıldı.

Dahi şəxsiyyət Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis edilib. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Bu, ümummilli lider Heydər Əliyevin doğma dilimizə tükənməz sevgisini və qayğısını təcəssüm etdirən sənəddir.

Ulu öndərin ana dilimizin inkişaf etdirilməsi siyasətini Prezident İlham Əliyev bu gün uğurla davam etdirir. Dövlət başçımız doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Ölkə rəhbərinin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Nəticədə kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" Sərəncamdır.

Ölkə başçısı 2012-ci il mayın 23-də imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamda deyilir: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir".

Prezident İlham Əliyevin Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2013-cü il 9 aprel tarixli, "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Fərmanı, həmçinin "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli Qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Bu tədbirlərin nəticəsidir ki, ana dilimiz bu gün yüksək səviyyədə inkişaf edib, zənginləşib. Qloballaşan dünyada ana dilimizin qorunub saxlanması və inkişaf etdirilməsi bu günümüzün ən zəruri məsələlərindəndir. Azərbaycan dili 50 milyondan artıq soydaşımızı birləşdirən və doğmalaşdıran əsas ünsiyyət vasitəsidir. Harada yaşamağımızdan asılı olmayaraq doğma ana dilimizi qorumaq, onu təbliğ etmək, mühüm vəzifələrdən biridir. Prezident İlham Əliyevin dediyi kimi: "Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir".

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2025.- 21 fevral (№ 38).- S.14.